*Vaqif YUSİFLİ*

# HEKAYƏNİ SEVİRİK...



*Son illər mətbuat səhifələrində yüzdən çox hekayə oxumuşam. Çexova, Mopassana, Cek Londona, Mirzə Cəlilə, Haqverdiyevə, Çəmənzəminliyə şöhrət gətirən, Yusif Səmədoğlunu, Anarı, Elçini, İsi Məlikzadəni, Əkrəm Əylislini, Afaq Məsudu, Məmməd Orucu da romanları, povestləri ilə bir sırada bir hekayəçi kimi tanıdan bu janrın gözəl nümünələri olubdur. Doğrudur, indi nəsrin digər janrları ilə müqayisədə kəmiyyətcə üstünlük təşkil edən hekayələrin heç də hamısı bədii keyfiyyət anlamına gəlmir, bununla yanaşı, ayrı-ayrı müəlliflərin uğurlu hekayələri ilə qarşılaşıram. Vaxtilə -- XIX əsrin sonlarında A.P.Çexov M.Qorki ilə söhbətində demişdi ki: «Mən 25 ildir hekayələrimə yazılan tənqidləri oxuyuram, heç bir qiymətli göstəriş xatırlaya bilmirəm, heç bir xeyirxah məsləhət eşitməmişəm». Təbii ki, iki hekayəçi haqqında bu qeydlərimdə göstəriş və məsləhət vermək fikrində deyiləm, tərifimdə də, iradlarımda da obyektiv olmağa çalışacağam.*

## VARİSİN HEKAYƏLƏRİ

Varis Yolçuyevdən oxuduğum və bəyəndiyim ilk hekayə «Zalımlar, babam və əncir ağacı»dır («Azərbaycan» jurnalı, 2014, № 12). Nəyini bəyəndim bu hekayənin? İlk növbədə, dilini, səlis ifadə tərzini, sonra hekayədə təsvir olunan hadisələrin reallığını və bu reallığın bədii təcəssümünü, daha sonra obrazların hər birinin fərdi düşüncə tərzinin ifadəsini, hər bir əsas və epizodik personajın özünəməxsus hərəkət «trayektoriyasını»… Hekayədə təsvir olunan əhvalat simvolik əncir ağacı ilə bağlıdır. Belə ki, əncir ağacı «evimizin arxasında - qonşuyla hasara dirənmiş, əsas hissəsi qəribə şəkildə əyilərək qonşu ərazisinə keçmiş nəhəng bir ağac idi, hündürlüyü 3 metri ötüb keçmişdi, gövdəsi qalınlığına görə lap söyüdlə bəhsə də girərdi». Elə qonşular arasındakı konfliktə də səbəb bu əncir ağacı olur. Ağac kultunun, ümumiyyətlə, ədəbiyyatımızda mistik bir anlamı var. «Kitabi-Dədə Qorqud» dastanlarından üzü bəri ağac müqəddəs sayılıb. Və hekayədə təsvir olunan əncir ağacı da belə bir missiyanın daşıyıcısıdır. «Babam danışırdı ki, Allah bu möcüzəli meyvəni nahaqdan bitkilə otun ilkləri arasında yaratmayıb ki. Bu, müqəddəs bir meyvədir, sehrlidir, Deməzsənmiş, o vaxt almanlarla müharibədə əncir çörək funksiyası daşıyırmış, insanlar acanda əncir qurusu yeyirlərmiş». Amma hamı beləmi düşünür? Ona görə də müəllif müqəddəsliyə tapınanlarla onu tapdalayanlar arasında fərqi bizə göstərir. İki

ailə və bir-birindən mənəviyyatca seçilən iki dünyagörüşü. Əncir ağacının bu tərəfində «sarı gözəlliyin içində gizlənən qırmızımtıl, narıncı çalarları» sevən baba, Zümrüd müəllimə, ata, ana, səkkizinci sinif şagirdi (əhvalatı nəql edən uşaq), əncir ağacının o tərəfində isə «hündür boylu, orta yaşlı, zəhmli kişi, yayın istisində də həmişə kostyum geyinən, qalstuk taxan, qara rəngli, alışıb-yanan «Mersedes» sahibi Məlikzadə, «xeyli gənc, gözəl-göyçək, işi-gücü həyət-bacadakı qulluqçulara göstəriş verən, mobil telefonunda qurdalanan, bütün günü tennis oynayan, hovuzda çimən xanımı»… Və bir də mənzil-istismar sahəsinin işçiləri. Onlar Məlikzadənin təşviqiylə ağacı kəsmək əmrini verirlər. Guya əncir ağacının o tərəfə sallanan budaqları onların həyətini zibilləyir, «nəsilli-nəcabətli köpəklərinə xətər toxundurur, it yerə tökülən əncirdən yeyib qarın ağrısına düşübmüş».Və istədiklərinə çatır ağacın o tərəfindəki adamlar. Beləliklə, bir həyətdə faciə, o biri həyətdə şadlıq başlanır. Faciə budur ki, baba bu dərdə dözməyib xəstəxanaya düşür. Müəllif bu faciəni ayrı-ayrı detallarla bizə təqdim edir: «Bilirəm, inanmayacaqsınız, amma vallah, düz deyirəm, mişar irəli-geri hərəkət etdikcə ağacın gövdəsiylə yuxarıdan aşağı yaş axırdı. Ağac ağlayırdı». Amma bu faciənin ömrü uzun olmur, baba xəstəxanadan çıxır, o, əncir ağacının yenidən boy atan gövdəsinə baxıb sevinir, əncir ağacı ayla, günlə yox, saatla, dəqiqəylə böyüyür. Amma gözlənilməz bir hadisə də baş verir: «qara maskalı bir neçə şəxs nömrəsiz maşınla gəlib Məlikzadənin əllərini qandallayaraq apardı».

Varisin bu hekayəsini bir də ona görə bəyəndim ki, adi bir əhvalatda cəmiyyətdə hökm sürən və çox təəssüf ki, hələ də davam edən sosial bərabərsizliyi, bir-birinə zidd həyat tərzini və dünyagörüşlərini açıb-ağardır.

Varisin ən yaxşı hekayələrindən biri «İyirmi bir»dir ki, Fransanın «Avtoqraf» ədəbi almanaxına daxil edilib (Sevindirici haldır ki, onun bir neçə hekayəsi xarici ölkələrdə də uğur qazanıb). Varisdən ilk oxuduğum və öncə haqqında söz açdığım o hekayədən fərqli olaraq, Varis «İyirmi bir» və sonrakı hekayələrində psixoloji effektlərə daha çox diqqət yetirir. Sanki hadisələr ikinci plana keçir, məqsəd təsvir olunan obrazların daxilində baş verən prosesləri açıb-ağartmaqdır. «İyirmi bir» hekayəsində «bir qoca, bir uşaq, bir də «mən» üzü gündoğana» yol gedirlər. «Bu yolçuluq boşuna olası deyildi». Hər kəs onu düşündürən suallara cavab tapmaq istəyir. Bu səyahətdə «Mən» aparıcıdır. O, «mənasızlığın mənasını» axtarmağa çalışır. Hiss olunur ki, o, həyatın cansıxıcı burulğanındadır. Amma bu burulğandan çıxmaq mümkünmü? Bu da qəbiristanlıq. Başdaşındakı yazılar. Və birdən suallar yağışı başlayır: «Niyə xoşbəxtlik hamı üçün eyni, əlçatan məsafədə gizlədilməyib? Niyə ali millət, böyük dövlət, hegemon din adlı dişarı, hakimiyyət, ierarxiya, klan, region adlı içəri imtiyazlar və bunlardan məhrum olan zavallılar mövcuddur axı? Niyə hədəf var, amma hədəfi vurmaq üçün hamıya eyni sayda patron paylanmır?» Amma «Mən»in bu sualları «mənasızlığın mənasını» axtarmaq üçün heç bir önəm daşımır. Qəbiristanda isə başdaşlarından boylanan şəkillər təəccüb və heyrət doğurur: «Diqqət etdikdə onların yaş fərqinin, lap diqqət etdikdə heç cins fərqinin də olmadığını duymağa başladım. Onlar uşaqmı, gəncmi, yaşlımı idilər, kişimi, qadınmı idilər, bilinmirdi». Fani dünyanın qurbanları… Hekayədə yolçulardan biri - Qoca qəbiristanlıqda, lap girəcəkdə yeni qazılmış boş qəbrin içinə enir və oradan çıxmır. Görünür, insan öz fiziki ölümünü qabaqlaşdıra da bilər. Uşaq və «Mən» isə geri qayıdırlar. Amma «Mən»i soyuq tər basır ki, qəbiristanlıqda hələ də boş qəbirlər qalıb.

Belə bir sual doğur: əgər bu dünya qarğa sürüsünün sərçələrin, göyərçinlərin səslərini batırdığı, bir faniliyin, bir ümidsizliyin baş alıb getdiyi

dünyadırsa, bəs onda, biz bu dekadentizmdən, bu pessimizmdən necə xilas ola bilərik? «Külək azacıq səngiyib, buludlar tərpənməzdirlər. Daha yerin altı da, üstü də susur. Nə o qışqırtı-bağırtılardan, nə də o qəhqəhələrdən əsər-əlamət qalmayıb. Qalan təkcə qoxudur. İydə çiçəyinin qoxusu». Bu iydə çiçəyinin qoxusu Tanrıdan gəlirmiş. Məncə, bu son cümlə («İydə çiçəyinin qoxusu») hekayənin pessimist «qoxusunu» nəinki burnumuzdan, beynimizdən, şüurumuzdan da silib aparır.

Varisin «İyirmi ikinci mənzildə» hekayəsində də qəmli, kədərli notlar diqqəti cəlb edir. İyirmi bir yaşlı qız - Ləman 4-cü dərəcəli skolioz xəstəliyindən əziyyət çəkir. Bu xəstəlikdən qurtulmağın yeganə yolu Almaniyada və İsraildə əməliyyat olunmaqdır. Amma bu mümkünsüzdür. Çünki yalnız maaşla dolanan həkim ata-anasının imkanı yoxdur qızlarının əməliyyat pulunu yığmağa. «Ər və arvad nə qədər cəhd eləmişdilər, ixtisasları üzrə dolanışığı təmin edə biləcək iş tapa bilməmişdilər. Kreditlər, kirayə evlər, sonra da yeganə övladlarının bu qəfil dəhşətli xəstəliyi…»

Hekayə boyu o xəstə qızın qüssəli etirafları eşidilir. Tələbəlik illəri, kənd həyatı, onun xəstəliyini bilib nişanından imtina edən Qasımla bağlı düşüncələri, atası-anasının gün-güzəranı, qızlarına sevgiləri, rəfiqələri… bir sözlə, sanki ölümqabağı əndişələr. Hekayə beləmi davam edəcək? Amma yox! Varis hekayədə iki epizodla it hürən tərəfə yox, işığa üz tutur. Birinci epizod: «Bir dəfə kənddə qəribə yuxu görmüşdü. Hər tərəf zülmət idi. Ağappaq, uzun çuxada, üzü görünməyən hündürboy bir şəxs ona «Arxamca gəl, səni olmağın lazım gələn yerə aparacağam» söyləmişdi. Və onlar, lap nağıllardakı kimi, işıqlı, güllü-çiçəkli dünyaya çıxmışdılar. Güllərin arasında heyranlıqla gəzəndə naməlum şəxs onun əlini eynən itburnuya oxşayan bir gülün üstünə qoymuşdu. Demişdi, bu gül Səhləb gülüdür, sənin taleyindir. …Bakıya qayıdandan sonra axtarıb tapmışdı ki, bu, orxideya adlanan bir güldür, məhəbbət rəmzidir». İnsanın ürəyində ki məhəbbət alovu yanır, ölüm gələndə belə, qorxu yoxdur. İkinci epizod Mərcan adlı pişiklə bağlıdır. Bir ev alışıb yanır, hamı qaçır, canını qurtarır. Mərcan isə evdədir, onu yanan halda xilas edirlər. Evin xanımı hər yerdə, hətta televizorda car çəkir ki, ey insanlar, Mərcanı xilas etmək lazımdır. «Aparıcı danışırdı ki, Mərcanın xilası, bütün şəhərin diqqət mərkəzindədir. Tək rəsmi şəxslər deyil, tək məktəblilər, tələbələr deyil, bütün ictimaiyyət burdadır. Ən müxtəlif təşkilatlardan, cəmiyyətlərdən, hətta xarici səfirliklərdən nümayəndələr gələrək Mərcanın taleyi ilə maraqlanırlar». Bu hadisə ironiya deyilmi? Yatağında əzablar çəkən Ləman və «ağıllı» pişik Mərcan. Amma Mərcan xilas olur. «Sahibəsi ona tuşlanmış kameraların və fotoaparatların fonunda ağlaya-ağlaya öpüb-oxşayırdı. Ətrafa toplaşan insanlarsa qışqırır, əl çalırdılar». Dəhşətli mənzərədir. Amma Mərcanın xilası xəstə qızın üzünə təbəssüm yayır. Anasına söyləyir ki, hər şey yaxşı olacaq. Beləliklə, bir pişiyin xilası bir xəstənin həyatına təsirsiz qalmır. Əlbəttə, bu hekayədə öncə dediyim ironiya var, cəmiyyətdəki sosial ədalətsizliyin tənqidi var.

Varisin «Sonuncu mogikan» hekayəsi isə (geniş variantı «Ədəbiyyat qəzeti»nin 3 və 10 fevral saylarında çap olunub) bu, çox uzun bir, hətta kiçik bir povest həcmindədir. Müəllif XVII əsrin ortalarında yaşamış mogikan tayfalarının taleyindən də söz açır və bu tarixi əhvalatın hekayədə təsvir olunan real hadisələrlə heç bir bağlantısı görünmür. Hekayənin qəhrəmanı isə, bitkin bir xarakterə malik deyil. Ən başlıca nöqsan isə, Varisə xas olmayan uzunçuluqdur.

Adətən, əksər nasirlərimiz hekayədən, povestdən sonra roman janrına müraciət edirlər. Varis isə, səhv etmirəmsə, dörd romandan sonra hekayəyə

keçir və romanlarından fərqli olaraq (bu, mənim şəxsi fikrimdir), hekayələrində daha çox uğur qazanır. Hekayə yazıçıdan daha çox çeviklik, yığcamlıq, bir və ya iki hadisənin və obrazın timsalında ümumiləşdirmələr yaratmaq tələb edir. Varis Yolçuyev bunu bacarır.

## *GÜNEL NATİQİN HEKAYƏLƏRİ*

Günel Natiqin hekayələri, həmçinin, məqalə və esseləri, köhə yazıları artıq bir neçə ildir ki, mətbuatı və ədəbiyyat saytlarını dolaşmaqdadır. Yaxınlarda Günelin «Məhəbbət quşları» hekayələr kitabının «Natəvan» klubunda təqdimatı da keçirildi.

Təfərrüata varmadan deyim ki, Günelin hekayələri içərisində onun bu janrda, hamısında olmasa da, potensial imkanlarını aşkara çıxaran nümunələr var. Bir neçə hekayəsindən söz açmaq istəyirəm.

Əvvəla, Günel nədən yazır sualına cavab verim. Həyatda onu nə düşündürürsə, ictimai-sosial problemlərdən tutmuş ailə-məişət məsələlərinə, gördüyü, müşahidə etdiyi və yanından laqeydliklə ötmədiyi hadisələrə qədər. Əksər hekayələrində insan ağrı-acılarını qələmə alır, tənha qadınların həyatından söz açır, xüsusilə, sənət adamlarının taleyindən yazır. Günelin təhkiyəsində bir dolaşıqlıq yox, dilində, ifadə tərzində həmçinin… Hiss olunur ki, onun təsvir etdiyi hadisələr uydurma deyil, sadəcə, bədii təxəyyüldən keçib ümumiləşir, yəni həyat həqiqəti bədii həqiqətə çevrilir. Bunu, əlbəttə, cavan bir yazıçı üçün uğur hesab edə bilərik. Bir kiçik hekayədə maraqlı bir obraz yaratmaq, həm də bu obrazı xarici görünüşündən daxili aləminin çırpıntılarına qədər vəhdətdə təqdim etmək Günelin doğrudan da uğurudur. Lap kitabdakı ilk hekayəsindən başlayaq - «Bircə»dən. Hekayənin əsas personajı, adından göründüyü kimi, Bircədir. «Rəfiqəm Bircənin həyatı insanlarla dolu idi: qohumlar, qonşular, dostlar, rəfiqələr..Hansısa rəfiqəsi ona cürbəcür bahalı hədiyyələr alırdı, hansısa dostu onu dəbdəbəli restoranlara dəvət edirdi, sevimli xalaqızı onun ən bəyəndiyi qutabları bişirib qonaq çağırırdı. Bizə gələndə telefonu əlindən düşmürdü. Gah bir rəfiqəsinə, gah o biri rəfiqəsinə zəng vurur, görüşmək üçün vədələşir, ya da sadəcə, kef-əhval soruşurdu…Bircə pərəstişkar sarıdan da qəriblik çəkmirdi». Amma… sən demə, əri illər öncə onu atıb gedəndən bəri həyatında heç kim olmayıb. Bu qadın tənhadır və tənhalıqdan xilas olmaq üçün özünə yalandan həyat uydurub. Bir sözlə, Bircə tənhalığın tragikomediyasını oynayır. Onun tənhalığı «insanlarla dolu» olsa da, bu, əsl faciədir. İnsan necə olur ki, şaqraq qəhqəhələrlə növbəti dramını yaşasın, özü üçün yalançı bir həyat yaşasın, amma yarıqaranlıq, dar otağında tənhalıqdan əzab çəksin? Hər halda, Günel belə bir obrazı bizə təqdim edir və bu obrazın uydurma olmadığına bizi inandırır.

Ümumiyyətlə, Günelin təsvir etdiyi obrazlar qəribəliyi, hətta qeyri-adiliyi ilə maraqlıdırlar. Məsələn, Adil -- «Ölü səhra» hekayəsinin bədbəxt qəhrəmanı. Həyatı özü istəmədən anası tərəfindən proqramlaşdırılan Adil skripkaçı olmağa məcbur edilir. «Ancaq elə ilk gündən balaca Adil özünü skripkaya verə bilməyəcəyini anlamışdı». Amma anasının hökmündən çıxa bilmir və bundan sonra onun zorla yaşanılmış bir həyatı başlayır. Anası istəyir ki, o, mahir bir skripkaçı olsun, amma sənəti kimə isə sevdirməkdə mənəvi təzyiq baş verməsin gərək. Ananın xəyalları puç olmağa başlayır: «Dəli bir qəzəb bütün bədənini titrətdi. Xəyallarının intiqamını almaq istəyi varlığına hakim kəsildi. Gitaranı oğlunun əlindən alıb çarpayının kənarına çırpdı. Bir dəfə vurmaqla hirsi soyumadı». Skripkaya yox, gitaraya, Vısotskiyə meylini

anası beləcə amansızlıqla məhv edir. Adil musiqi məktəbini bitirir, təhsilini davam etdirmək üçün xaricə göndərilir, qoca yəhudi müəllim Albert Polonskinin tələbəsi olur, istedadı ona imkan verir ki, diplom işində də uğur qazansın. Bəs sonra? Bakıya qayıdır. Anası dünyasını dəyişib: «onsuz da həyatdan təcrid olmuş qarı üçün bu şəkildə yaşamaq ölümdən betər idi». Bəs sonra? Proqramlaşdırılmış həyat sona yetir. Adil bir kimsədən yox, özündən intiqam alır. Fəhlə həyatı yaşayır, qum daşıyır, hər şeyi unudur. Amma «hər gecə yuxu və reallıq olduğunu anlaya bilmədiyi bir xəyal görürdü. Ona oxşayan bir adam əlindəki tanış gitara ilə Ölü Səhraya doğru qaçırdı».

Günelin qurduğu süjet, bu süjetdəki hadisələr, obrazın həyatındakı bütün olaylar səliqə ilə oxucuya nəql edilir, amma bütün bu hadisələrin içində obrazın hisslər, həyəcanlar burulğanı daha təsirlidir. Adilin içindəki dəhşətli boşluq, istəmədiyi həyatı yaşamaq məcburiyyəti və bununla da mənasızlığa yuvarlanması hekayədə maraqlı detallarla təqdim edilir. Bu hekayə əsasında hətta povest, roman ərsəyə gətirmək olar. Amma Günelə bu da kifayətdir ki, bir hekayədə bir «tale romanı» yarada bilib. Məncə, «Ölü səhra» onun ən gözəl hekayəsidir.

Günel ən yaxşı hekayələrində dolğun xarakter yaratmağa meyil edir. «İşığın sorağında» hekayəsində kor bir insanın taleyini qələmə alır. O, kor olsa da son dərəcə hissiyyatlı bir insandır, «həyətdə ağaclar, quşlar vardı, onlarla dərdləşə, onları hiss edə bilirdi. Yarpağın xəfif titrəyişinə qədər hər şeyi duyurdu». Onu necə səciyyələndirir Günel? İşıqsız işıqlı adam kimi.

Günel sənət adamlarının həyatından da bir neçə hekayə yazıb və onların içərisində «Aktrisa» xüsusilə seçilir. Bu hekayədə təsvir olunan obrazın - Alidənin həyat prinsipi «səhnə kraliçası» kimi şöhrətlənmək arzusuyla bağlıdır. Amma neyləyəsən ki, istedadlı olsa da, potensialını göstərə bilmir və illər boyu o «səhnə kraliçasının» kölgəsinə çevrilir. «Düşündü ki, o, ömür boyu öz halal vaxtını gözlədiyini sanaraq, əslində, özgə vaxtı gözləyib. Bu özgə vaxt, bütün nail olduqları kimi, kraliçaya məxsus idi. Bunu anlamaq üçün 50 il gözləmək lazım gəlmişdi». Və «ömür boyu kraliçanın kölgəsində qalan Alidəni öz tale yoldaşından cəmi bircə gün ayırdı. Ertəsi günün səhəri həyatının baş rolunu oynamağa macal tapmamış, ürəktutmasından dünyasını dəyişdi».

Beləliklə, Günel istedadların kölgəsində qalan və öz istedadını parlatmağa cürəti, cəsarəti çatmayan bir sənətçinin faciəsini ümumiləşdirir.

Günelin «Qara donlu», «Konsuelo», «Atlıya əmanət ev», «Məhəbbət quşları», «Ayaqyalın gəzən rəssam» hekayələri də, elə bilirəm, oxucular tərəfindən maraqla qarşılanacaq. Çünki bu hekayələrdə real həyat hadisələri öz bədii təcəssümünü tapıb. Amma Günelin xıpxırda hekayələri var ki, onlar sadəcə, müəyyən bir əhvalatın nəql edilməsindən irəli getmir. «Sevgidim, nə yaxşı gəldin», «Hər şey və heç nə haqqında»…

Günel Natiq. Günel atasının adını özünə təxəllüs seçib. Natiq Səfərovla «Azərbaycan» jurnalında bir yerdə işləmişik. Hətta bir otaqda. Heç vaxt onu unuda bilmirəm və öz sənətində son dərəcə professional olan Natiq mənə təkcə həmkar deyildi, həm də bir müəllim idi, desəm, yanılmaram. Çünki mən ondan çox şey öyrəndim.

Və Günelin kitabının lap arxasında şəkli verilib, onun gözlərinə baxıram, eynən Natiqin gözləridir.